# Vətənə və xalqa xidmət nümunəsi

## İdarəçilikdə yeni mərhələyə doğru ...

***❐ 2016-cı il iyulun 18-də Prezident İlham Əliyev tərəfindən "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişiklik edilməsi haqqında" Referendum Aktının layihəsi rəy verilməsi üçün Konstitusiya Məhkəməsinə göndərildi. İyulun 25-də Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun iclası keçirilmiş və "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Referendum Aktının layihəsinə müsbət rəy verilmişdir. Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi məqsədi ilə ümumxalq səsverməsi keçirilməsi haqqında Prezident İlham Əliyevin iyulun 26-da imzaladığı sərəncamına əsasən, referendum 2016-cı il sentyabrın 26-da keçirildi.***



Referendum aktı layihəsi ilə təklif edilən dəyişikliklər hüquqi dövlət quruculuğu, sosial rifahın yaxşılaşdırılması, dövlət idarəetmə orqanlarında qərarların operativ qəbulu, habelə dövlət-vətəndaş, bələdiyyə-vətəndaş münasibətlərinin daha əlverişli formatda təşkili, vətəndaşlarımıza layiqli həyat səviyyəsinin təmin edilməsinə xidmət edirdi.

Təklif olunan dəyişikliklərdə Azərbaycanın siyasi tarixində ilk dəfə olaraq dövlət idarəetmə sistemində yeni institusional çərçivənin formalaşdırılması nəzərdə tutulurdu. Azərbaycan Respublikasının vitse-prezidentləri vəzifələrinin təsis edilməsinə dair Konstitusiyaya təklif edilən dəyişiklik prezidentin fəaliyyətinə hərtərəfli dəstəyin göstərilməsi, zərurət yarandığı halda prezidentin səlahiyyətlərinin səmərəli şəkildə yerinə yetirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edirdi. Referendum aktı səsvermə prosesində xalqın böyük dəstəyini qazandı.

2017-ci il 21 fevral tarixində isə konstitusion dəyişikliklərə uyğun olaraq Prezident İlham Əliyevin sərəncamı ilə Mehriban Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edildi. Beləliklə siyasi idarəçilik tariximizdə yeni mərhələnin əsası qoyuldu.

Mehriban xanım Əliyeva aktiv ictimai fəaliyyətə 1995-ci ildə hazırda rəhbərlik etdiyi Azərbaycan Mədəniyyət Fondunu yaratmaqla başlayıb. 1996-cı ildə isə Azərbaycan, ingilis və rus dillərində işıq üzü görən "Azərbaycan-İrs" jurnalının təməlini qoyub. 2002-ci ildə Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilən Mehriban Əliyeva bədii gimnastika üzrə dünya kubokunun "A" kateqoriyalı mərhələsinin (2003), Dünya kubokunun (2004), 27-ci Dünya çempionatının (2005), 23-cü (2007), 25-ci (2009) və 30-cu (2014) Avropa çempioantlarının Azərbaycanda keçirilməsində xüsusi rol oynamışdır. Mehriban xanım 2004-cü ildən etibarən ulu öndər Heydər Əliyevin adını daşıyan fondun prezidentidir. Heydər Əliyev Fondu tariximizə müstəqil dövlət qurucusu kimi daxil olmuş Heydər Əliyevin xatirəsinə xalqımızın ehtiramının ifadə etmək arzusundan, onun zəngin mənəvi irsini əks etdirmək, azərbaycançılıq fəlsəfəsinin ölkəmiz üçün əhəmiyyətini vurğulamaq, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq zərurətindən irəli gələrək 2004-cü il 10 may tarixində yaradılmışdır. Fondun uğurlu fəaliyyəti nəticəsində Azərbaycan həqiqətləri, ölkəmizin siyasi, ictimai, mədəni mənzərəsi bütün dünyada yüksək səviyyədə təbliğ edilir. 3 avqust 2004-cü ildə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva Azərbaycanın şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub saxlanılması, inkişaf etdirilməsi və təbliği sahəsindəki aktiv fəaliyyətinə görə UNESCO-nun xoşməramlı səfiri adına layiq görülüb. Mehriban Əliyeva türkdilli ölkələrin bu yüksək ada layiq görülən ilk qadın təmsilçisidir. 2006-cı il 23 noyabrdan etibarən Azərbaycanın birinci xanımı həmçinin İslam Konfransı Təşkilatının elm, təhsil və mədəniyyət üzrə qurumu olan İSESCO-nun xoşməramlı səfiridir. O, bu təşkilatın yüksək adına layiq görülmüş ilk qadındır. Mehriban xanım 2004-cü ildən Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin və Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2013-cü ildən isə partiya sədrinin müavinidir. Mehriban Əliyeva 2005-ci ildən etibarən 12 ilə yaxın bir müddətdə Milli Məclisin deputatı kimi fəaliyyət göstərib, xalqımıza, dövlətimizə xidmət edib. Seçicilər onu 14 saylı Xəzər seçki dairəsindən Milli Məclisə deputat seçiblər. Prezident İlham Əliyevin 2017-ci il 21 fevral tarixli sərəncamına əsasən, yeni vəzifəyə təyin edilməsiylə əlaqədar olaraq, Birinci vitse-prezident Azərbaycan Respublikası Milli Məclisində fəaliyyətini dayandırmışdır. O, martın 7-də Milli Məclisin yaz sessiyasının növbəti plenar iclasında çıxış edərək Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyinin irəli sürüldüyü Xəzər rayonunun ərazisində 2005-ci ildən bu günədək aparılmış işlər barədə qısa məlumat vermişdir. Qeyd edək ki, bu müddət ərzində rayonda 42 məktəb, 44 uşaq bağçası, 16 uşaq evi və internat məktəbi, o cümlədən 3 uşaq evi üçün yay düşərgəsi inşa olunub və ya əsaslı təmir edilib. 17 səhiyyə müəssisəsi, 10 idman obyekti, o cümlədən 6 stadion, mədəniyyət evləri, kitabxanalar, muzeylər daxil olmaqla 28 mədəniyyət obyekti, 7 məscid və ziyarətgah istifadəyə verilib. Bundan əlavə, rayonun Şüvəlan, Binə, Türkan və Zirə qəsəbələrində əhalinin qaz və elektrik enerjisi ilə təminatı yaxşılaşdırılıb, Şüvəlan, Binə və Qala qəsəbələrində su xətləri çəkilib, rayon ərazisində ümumi uzunluğu 93 kilometr olan yollar salınıb. Həmçinin 2007-ci, 2009-cu, 2013-cü və 2016-cı illərdə Mehriban xanım amnistiya aktlarının qəbul edilməsi təşəbbüsü ilə çıxış edib, ümumilikdə, 39 min 887 məhkum cəzasından azad edilib. Mehriban xanım Əliyevanın, eyni zamanda, Azərbaycan-Amerika, Azərbaycan-Fransa parlamentlərarası dostluq qrupunun rəhbəri kimi də əhatəli xidmətləri vardır. Mehriban xanım çıxışında bildirmişdi: "Əminəm ki, Azərbaycanın gələcək inkişafı üçün əlimizdən gələni bundan sonra da tam gücümüzlə birlikdə, bir komanda kimi həyata keçirəcəyik".

Yüksək idarəçilik qabiliyyətinə sahib olan Mehriban Əliyeva "Eurovision-2012" mahnı müsabiqəsinin, ilk Avropa Oyunlarının yüksək səviyyədə hazırlanmasına təşkilatçılıq etmişdir. Təsadüfi deyildir ki, bu il baş tutacaq İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin sədri də Mehriban Əliyevadır. Bu onun peşəkar təşkilatçılıq qabiliyyətindən xəbər verir. Azərbaycanın birinci xanımının zəngin, səmərəli fəaliyyətinə dünya dövlətləri, beynəlxalq təşkilatlar tərəfindən yüksək dəyər verilmişdir. "Yüzilliyin mesenatları" Beynəlxalq Fondunun "Yaqut Xaç" ordeni (9 iyun 2015), Polşa Respublikasının "Xidmətlərə görə Böyük Komandor Xaçı" ordeni (14 sentyabr 2009), Fransa Respublikasının "Şərəf legionu" ordeni (15 fevral 2010), UNESCO-nun "Qızıl Motsart" medalı (30 iyul 2010), Krans Montana Forumunun qızıl medalı (24 iyun 2011), Rusiya Federasiyasının İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin fəxri professoru adı (13 aprel 2012), Pakistanın "Şəhid Bənazir Bhutto Qadın Mükəmməlliyi Mükafatı - 2013" (27 dekabr 2013), "The Business Year" jurnalının "İlin Birinci Xanımı" mükafatı (14 may 2014-cü il), Küveyt Dövlətinin fəxri diplomu (21 avqust 2014) , Azərbaycanın ən ali "Heydər Əliyev" ordeni (29 iyun 2015) və s. titullar, mükafatlar Mehriban xanımın humanist fəaliyyətinə verilən qiymətdir.





Bütün bu sadalanan yorulmaz, qətiyyətli və uğurlu fəaliyyətin nəticəsidir ki, Mehriban xanımın Birinci vitse-prezident təyin olunması böyük məmnunluqla qarşılandı. Mehriban xanımın Birinci vitse-prezidentliyi xalqın sosial sifarişi olaraq səciyyələndirilir. Çünki onun dövlət idarəetmə sistemində bu yüksək vəzifəni daşımağa həm siyasi, həm də mənəvi haqqı çatır.

Mehriban Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olunması münasibətilə bir sıra ölkələrin dövlət rəsmiləri, ictimai-siyasi xadimlər, beynəlxalq təşkilatların, dövlət, elm və təhsil müəssisələrinin rəhbərləri, xarici ölkələrin Azərbaycandakı səfirlikləri, diplomatik korpusun təmsilçiləri tərəfindən təbriklər gəlməkdə davam edir. O cümlədən dünyanın bir çox qabaqcıl media orqanlarında bu təyinatla bağlı yazılar dərc olunur.

Fevralın 22-də Türkiyənin "Hüriyyet" qəzetində dərc olunan yazıda Birinci vitse-prezident vəzifəsinin Azərbaycanda idarəçilik üçün yeni olduğuna diqqət çəkilmişdi. Qəzet Mehriban Əliyevanın ölkənin ictimai həyatında fəal rola malik olduğunu, bu istiqamətdə genişmiqyaslı işlər gördüyünü də xüsusi vurğulayırdı. "Cümhuriyyət" qəzeti də Azərbaycanda Birinci vitse-prezident təyinatına diqqət çəkərək bu vəzifənin böyük məsuliyyətindən, missiyalarından geniş şəkildə bəhs etmişdi. Qəzet Mehriban Əliyevanın buna qədər Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri olduğuna diqqət yetirir, bu vəzifələrdə onun özünü doğrultmasına diqqət çəkirdi. İngilis dilində nəşr edilən və Türkiyənin aparıcı mətbu orqanlarından sayılan "Huriyyet Daily News" qəzetində isə ötən ilin sentyabrında baş tutan referendumdan sonra müəyyənləşdirilən Birinci vitse-prezident vəzifəsinin Azərbaycanın ictimai-siyasi həyatında böyük rola malik olacağından bəhs edilmiş, bu vəzifəyə ölkənin birinci xanımının təyin edilməsinin zəruriliyi haqda Azərbaycan ictimaiyyətində elə o vaxtdan fikir formalaşdığını bildirmişdi.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva fevralın 26-da "Rossiya 1" telekanalına müsahibə verib. Müsahibə hər bazar günü efirə çıxan "Vesti nedeli" proqramında göstərilib. Proqramın aparıcısı jurnalist Dmitri Kiselyov qeyd edib ki, Mehriban Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti təyin edilməsi haqqında qərar məntiqli qərar kimi qarşılanıb. D.Kiselyov deyib: "Mehriban Əliyeva onsuz da praktiki olaraq ölkənin bütün ictimai və siyasi həyatında iştirak edir, idarəçilik sahəsində zəngin təcrübəyə malikdir. Cəmiyyətdə onun nüfuzu şəksizdir. Mehriban Əliyeva son üç çağırış Azərbaycan parlamentinin deputatıdır, Heydər Əliyev Fonduna müvəffəqiyyətlə başçılıq edir, onun rəhbərliyi ilə 2012-ci ildə Bakıda "Eurovision" müsabiqəsi çox gözəl keçirilib, inişil isə tarixdə ilk dəfə Avropa Oyunları təşkil edilib. Mehriban Əliyeva Şərq ölkələrində siyasətin yalnız kişilərin işi olması barədə stereotipləri uğurla təkzib edir".

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva proqrama müsahibəsində bildirib ki, yeni vəzifədə Prezidentin etimadını, ən başlıcası isə ona inanan, ona ümid bəsləyən insanların etimadını doğruldacaq. Mehriban xanım bu təyinatın Prezidentin şəxsi təşəbbüsü olduğunu, uzun illər ərzində həm Prezidentin xanımı, həm də onun silahdaşı olmağının da bu işdə rol oynadığını vurğulayıb. Fevralın 27-də "Rossiya 24" kanalında da həmin müsahibə efirə verilib.

1 mart tarixində ABŞ-da dərc olunan "The Huffington Post" qəzetində psixiatriya doktoru, xanım Mellori Moss-Katsın özünü təsdiq etmiş qadınların yüksək vəzifələr tutmalarının vacibliyi barədə məqaləsi dərc edilib. Məqalədə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın ölkənin Birinci vitse-prezidenti təyin edilməsindən də danışılmışdır. M.Moss-Kats yazırdı ki, Birinci vitse-prezident Mehriban Əliyevanın siyasətdə böyük təcrübəsi var. O, üç çağırış parlament seçkiləri zamanı öz seçki dairəsində seçicilərin səslərinin 90 faizindən çoxunu toplayıb. O, Heydər Əliyev Fondunun prezidenti kimi resursların müəyyən hissəsini Azərbaycanda və onun hüdudlarından kənarda insanların yaşayış şəraitinin yaxşılaşdırılmasına yönəldilən humanitar layihələrə sərf edib. O, məktəb və xəstəxana binalarının tikintisi layihələrinə rəhbərlik edib, Fransada Luvr Muzeyində və Versal Sarayında bərpa layihələrinə ianələr edib. Birinci vitse-prezident Mehriban Əliyevaya dərin ehtiram hissi ilə yanaşır və onu sevirlər. M.Moss-Kats sonda ümidvar olduğunu bildirib ki, gələcəkdə ABŞ Administrasiyasında da qadın vitse-prezident olacaq.

Mərakeşin "Əl-İslah və ət-Tənmiyə" qəzetinin 3 mart tarixli nömrəsində dərc olunmuş məqalədə Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməsindən bəhs olunur. Məqalədə Mehriban Əliyevanın peşəkar, bilikli, təcrübəli, prinsipial və xeyirxah insan olduğu diqqətə çatdırılır. Qəzetin baş redaktoru Əhməd Mitşunun müəllifi olduğu məqalədə Birinci vitse-prezident Mehriban Əliyevanın ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacağı ilə bağlı fikri öz əksini tapıb.

Martın 7-də isə "The Washington Times" qəzetində "Caspian Group Holdings"in direktoru Rob Sübhaninin "Azərbaycanın xeyirxah xanımı" sərlövhəli məqaləsi dərc edilib. Materialda Azərbaycanın birinci xanımı və Birinci vitse-prezidenti Mehriban Əliyevanın yüksək insani keyfiyyətlərindən və xeyriyyəçilik fəaliyyətindən bəhs edilir. Ekspert yazır ki, Mehriban xanım çox cəhətdən mənsub olduğu millətinin əsas dəyərlərini özündə cəmləşdirir. Adının hərfi mənası "xeyirxah xanım" demək olan Mehriban xanım dini tolerantlığın fundamental əsasını təcəssüm etdirir.R.Sübhani məqalənin sonunda yazır ki, Yaxın Şərqin çox yerində qadın hüquqlarının tapdalanması davam etdiyi bir vaxtda Azərbaycan "xeyirxah xanımı"nın Birinci vitse-prezident vəzifəsinə təyin olunması Birləşmiş Ştatlar tərəfindən alqışlanmalı və dəstəklənməlidir.

Tək Azərbaycanda deyil, ölkə xaricində də bu məsələni diqqət mərkəzində saxlayanlar belə bir fikirlə həmrəydirlər ki, Azərbaycan dövləti və xalqı üçün yorulmaz fəaliyyət göstərən Mehriban Əliyeva Birinci vitse-prezident vəzifəsində də özünü görkəmli dövlət xadimi kimi təsdiqləyəcək, ölkəsinə daha çox xidmət göstərəcək.

Martın 9-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın sədrliyi ilə ilk müşavirə keçirilib. İclas Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr olunmuşdu. Azərbaycanın Birinci vitse-prezidenti Bakı və Sumqayıt şəhərlərindəki qaçqın və məcburi köçkünlərin yeni mənzillərə köçürülməsinin vacibliyini vurğulayaraq bu məqsədlə əlavə vəsaitin və yeni binaların inşası üçün ərazinin ayrılmasının və tezliklə tikinti işlərinə başlanılmasının zəruriliyini qeyd edib. Mehriban xanım onu da vurğuladı ki, Bakı və Sumqayıtda inşa olunan yeni binalarda qaçqın və məcburi köçkünlərin köçürülməsi üçün mənzillər ayrılmalıdır. O, bu məsələnin qısa zamanda həlli üçün birgə çalışmağın əhəmiyyətini ifadə etdi.

"Bu gün qarşımızda duran əsas məqsəd Bakı və Sumqayıt şəhərlərindəki 4 min köçkün ailəsini yeni mənzillərlə təmin etməkdir. Ən qəzalı, ən ağır vəziyyətdə yaşayan ailələr tezliklə yeni binalara köçürülməlidir", - deyən Mehriban Əliyeva bu istiqamətdə müvafiq dövlət orqanları arasında əlaqələndirilmənin aparılması ilə bağlı göstərişlərini verərək qaçqınların və məcburi köçkünlərin işlə təmin olunması istiqamətində rayon icra hakimiyyətlərinə təkliflər hazırlamağı tapşırdı. Mehriban Əliyeva Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllini tapacağına, ərazi bütövlüyümüzün bərpa olunacağına, bütün qaçqın və məcburi köçkünlərin öz doğma yurdlarına qayıdacağına əminliyini ifadə etdi.

Sosial problemləri, aztəminatlı ailələri daim diqqət mərkəzində saxlayan Mehriban xanım Birinci vitse-prezident kimi ilk müşavirəsinə də bu problemə toxunmaqla bir daha ona olan ümid və inamı doğrultdu. Mehriban xanım Milli Məclisdə çıxışı zamanı qeyd etmişdi ki, vəzifəmdən, fəaliyyətimin istiqamətindən asılı olmayaraq mən həyatda sadə prinsiplərə arxalanmışam. Çalışmışam heç zaman unutmayım ki, vicdan və ləyaqət, mərhəmət və xoş niyyət, ədalət və qarşılıqlı hörmət Tanrının insana verdiyi ən ali, ən gözəl xüsusiyyətlərdir.

Bu gün ölkədəki quruculuq proseslərində, ictimai həyatda yaxından iştirak edən, millətin və dövlətin taleyinə biganə qalmayan Mehriban xanım Əliyeva Azərbaycan qadınının fədakar obrazını bütün dünyaya nümayiş etdirir. Şübhəsiz, bu təyinat beynəlxalq aləmdə böyük nüfuz sahibinə çevrilən Azərbaycanın daha da modernləşməsinə növbəti təkan olacaq.

*Nailə MƏMMƏDOVA,*
*"Azerbaijan Realities"*